## İşgüzar etika

İşgüzar etikanın mühüm tərkib hissələrindən biri ayrı-ayrı şirkətlərin müntəzəm qaydada cəmiyyətə hesabat verməsidir. Sosial məsuliyyət proqramının həyata keçirilməsinin gedişi, eləcə də biznesin aparılmasının etik tərəfləri, idarəetmə çözümlərinin qəbul edilməsi, əməkdaşlararası münasibətlər və s. ilə bağlı hesabat hazırlanıb ictimaiyyətə təqdim edilir. Azərbaycanın işgüzar həyatında xüsusi yer tutan BP şirkətinin hər il nəşr etdirdiyi «Davamlı inkişaf haqqında hesabat» sənədi buna nümunə sayıla bilər.

BP-nin bu il nəşr etdirdiyi son hesabatında aşağıdakı məsələlər əhatə olunur:

· Layihələr və əməliyyatlarla bağlı nailiyyətlər və çətinliklər;

· BP şirkətinin Azərbaycanda həyata keçirdiyi əməliyyatların BP qrupunun hasilat portfelində yeri;

· əməyin təhlükəsizliyi, sağlamlıq və ətraf mühitin mühafizəsi ilə bağlı göstəricilər;

· yerli əməkdaşların inkişafı və işəgötürmə;

· şirkətin özünün və tərəfdaşlarının sosial sahədəki fəaliyyətləri;

· sahibkarlığın inkişafı ilə bağlı təşəbbüslər;

· BP və tərəfdaşlarının həyata keçirdikləri təhsil proqramları;

· Azərbaycanda korporativ şəffaflığın təmin olunması və gəlirlərlə əlaqədar şəffaflığa kömək göstərilməsi ilə bağlı işlər;

· BP şirkətinin Azərbaycanda beş illik icra göstəriciləri.

«Davamlı inkişaf haqqında hesabat»da verilmiş məlumatların düzgünlüyünə kənar zəmanət BP qrupunun auditorları olan «Ernst & Young» şirkəti tərəfindən verilir. Auditor şirkətinin vəzifəsi hesabatda verilmiş rəqəmlərin və açıqlamaların düzgünlüyünü və sənədlərə əsaslandığını, BP-nin Azərbaycandakı fəaliyyətləri ilə bağlı əsas məsələlərin hesabatda tarazlaşdırılmış təqdimatını təmin etməkdir. «Davamlı inkişaf haqqında hesabat» həm şirkət daxilində, həm də şirkətdən kənarda çap və elektron variantlarda geniş şəkildə yayılır. Hesabatın nüsxələri maraqlı tərəflərə göndərilir, onlardan öz rəy və təkliflərini verməsi xahiş olunur. BP əməkdaşları, kütləvi informasiya vasitələrinin numayəndələri, tələbələr, peşəkarlar və təhsil proqramlarının məzunları arasında rəy sorğusu aparılır, açıq yığıncaqlar təşkil edilir. Rəy sorğularında və görüşlərdə irəli sürülən təkliflər və qeydlər diqqətlə nəzərə alınır.